HƏRBİ AND

Azərbaycan Respublikasına xidmətimlə fəxr edirəm!

№ 25 (937) 30 iyun 2022-ci il, Həftəlik ictimai-siyasi qəzet Qiymətı : 50 qəpik

# Şəhidlik, həm də bir məktəbdir




Şəhidlər haqqında yazılan bu misralar necə də yerində deyilib:

Şəhidlər şərəf, qeyrət, ucalıq
zirvəsidir,
Şəhidlər tarixləşən - istiqlal
türbəsidir,
Şəhidlər ölməzdirlər, ölməzi
ağlamazlar!

Şəhidlik uca bir zirvə olmaqla yanaşı, həm də bir məktəbdir. Elə bir məktəb ki, bizlər o məktəbdən igidliyi, mərdliyi, cəsurluğu, Vətən uğrunda candan keçməyin nə olduğunu öyrənirik. Hər dəfə şəhid məzarlarını, onları bəxş edən ata-anaları ziyarət edərkən şəhidlik adlı zirvənin əlçatmaz olduğu qədər də qürurverici bir məqam olduğunu dərk edirik. Həyatda ən böyük xoşbəxtlik də elə Vətən yolunda şəhid olmaqdır. Lakin hər bir insana da şəhid olmaq, o əlçatmaz zirvəyə ucalmaq nəsib olmurg

Məmləkətin, xalqın qan yaddaşı olan şəhid qəhrəmanlarından biri də Naxçıvan torpağının fəxri Məmmədov Araz Qəhrəman oğludur. Ailəsini ziyarət etdiyimiz qəhrəman 16 iyul 1997-ci ildə Naxçıvanın Tumbul kəndində anadan olub.

Orta təhsilini Tumbul kənd orta məktəbində alan Araz təhsilini bitirdikdən sonra hərbi xidmətə yollanıb. Hərb işini sevən el oğlu xidmətini başa vurduqdan sonra müddətdən artıq həqiqi xidmətini xüsusi təyinatlı qüvvələrin əsgər kimi davam etdirib.

Qəhrəman el oğlumuz 27 sentyabr 2020-ci ildə Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən törədilən təxribat nəticəsində başlanan Vətən müharibəsinə yollanıb. Xüsusi təyinatlıların tərkibində döyüşlərə qatılan Arazın Cəbrayıl, Füzuli və Xocavəndin alınmasında böyük xidmətləri olub. Onlarla düşmən əsgərini məhv edən Arazın döyüş yoldaşlarından biri, qazi Xəyal Kərimov deyir ki, Araz mərd və dostcanlı bir döyüşçü idi: "Onunla döyüş yoluna Cəbrayıldan başladıq. Daşıdığı vəzifəni, verilən tapşırığı layiqincə yerinə yetirirdi. Döyüşlərdə hər zaman öndə gedir, yaralanan döyüş yoldaşlarını atəş altından məharətlə çıxara bilirdi. Təəssüf ki, Füzulinin "Daş karyeri" adlanan ərazisində mən düşmən snayperinə tuş gəldim. Həmin gün xidmətimi dayandırmalı oldum. Arazla son danışığım onunla vidalaşmağım oldu. Məkanı cənnət olsun. Araz qələbəmizin təminatçılarındandır".

Məmmədov Arazın Xocavənd rayonun azad edilməsində xidmətləri böyük olub. Lakin elə həmin rayon yaxınlığında, 9 noyabr tarixində, qələbəyə bir gün qalmış ən ali məqam olan şəhidlik zirvəsinə yüksəlib. Arazın şücaəti, qəhrəmanlığı bir daha sübut etdi ki, vətənpərvər gənclər Vətən sevgisini yalnız dildə deyil, əməlləri ilə də sübut edirlər. Vətən uğrunda canını fəda edən şəhidimiz Prezident İlham Əliyevin Sərəncamı ilə ölümündən sonra "Vətən uğrunda" , "Xocavəndin azad edilməsinə görə" medalları ilə təltif edilib.

Qəhrəman anası Xeyrənsə xanımla söhbətimizi oxucularımıza təqdim edə bilmirik. Oğlu ilə nə qədər fəxr etsə də, kövrək olan ananın hər dəfə sözləri boğazında düyümlənib qaldı. Bu anaların qarşısında ancaq baş əyilməlidir. Bu ilin 15 iyul tarixində 25 yaşı tamam olacaqdı. Anası qədər sevdiyi vətəni yolunda şirin canından keçdi. Həyatının təzə-təzə çiçəkləndiyi bir vaxtda həyatla əbədi vidalaşdı Araz.

Bəli, şəhidlər ölmür, ürəklərdə, xatirələrdə, tarixdə həmişəlik yaşayırlar. Məmmədov Araz orta təhsilində tarix dərslərindən əla qiymətlər almasa da, ölümü ilə əbədi bir tarix yazdı. Elə bir tarix ki, gələcək nəsillər üçün əsl vətənpərvərlik, qəhrəmanlıq nümunəsi oldu.

Araz kimi şəhid qardaşlarımız əbədi olaraq bizim qəlbimizdə yaşayacaq!